# AZƏRBAYCAN RESPUBLİKASININ
# MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına**
**uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**
31 dekabr 2025-ci il tarixində bitən il üzrə

# Mündəricat

Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyinin məsuliyyətinin bəyanı
Müstəqil auditorun hesabatı

## Maliyyə hesabatları

Maliyyə vəziyyəti haqqında hesabat....4
Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat.... 5
Kapitalda dəyişikliklər haqqında hesabat....6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat....7

## Maliyyə hesabatları üzrə izahedici qeydlər

1. Giriş.... 8
2. Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları.... 9
3. Əsas uçot siyasəti.... 9
4. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi.... 15
5. Gəlir.... 15
6. Xərclər.... 15
7. Pul vəsaitləri və onların ekvivalentləri.... 15
8. Digər qısamüddətli aktivlər.... 16
9. Torpaq, tikili və avadanlıqlar.... 17
10. Qeyri-maddi aktivlər.... 18
11. Təxirə salınmış gəlir.... 19
12. Digər maliyyə öhdəlikləri.... 19
13. Digər kapital ehtiyatları.... 19
14. Əlaqəli tərəflərlə əməliyyatlar.... 19
15. Risklərin idarə edilməsi, korporativ idarəetmə və daxili nəzarət.... 19
16. Likvidlik riski.... 20
17. Ədalətli dəyər üzrə qiymətləndirmə.... 21
18. Hesabat dövründən sonra baş vermiş hadisələr.... 22

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin (bundan sonra - "Xidmət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik Xidmətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, mənfəət və ya zərəri, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

• Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
• Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
• Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
• Əgər yaxın gələcəkdə, Xidmətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

• Xidmətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
• Xidmətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
• Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
• Mümkün imkanlardan istifadə edərək Xidmətin aktivlərinin qorunmasının təmin edilməsi və;
• Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2025-ci il tarixində bitən il üzrə maliyyə hesabatları Xidmətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

Rəhbərlik tərəfindən:

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti / Financial Monitoring Service Republic of Azerbaijan

**Zaur Fətizadə**
**İdarə Heyətinin sədri**

**Arzu Nəftəliyeva**
**Maliyyə şöbəsinin rəisi**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

## RƏY № BDcCHfOKjB

Biz, "Abacus Audit and Consulting" MMC olaraq (Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 03 iyun 2022-ci il tarixli AT/135 saylı icazə verilib) Xidmətin 31 dekabr 2025-ci il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər, digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.
Xidmətdə tətbiq edilən mühasibat uçotu qaydalarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) və Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (MUBS) uyğunluğunun dəyərləndirilməsini apararaq cari tətbiq olunan uçot siyasətinə uyğun olan yeni MHBS və MUBS üzrə tövsiyyələrin verilməsini təmin etdik.

Hesab edirik ki, Xidmətin əlavə edilmiş maliyyə hesabatları əksər əhəmiyyətli aspektlərdə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmışdır.

### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz PHŞ-dən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə saxtakarlıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Rəhbərlik Xidmətin fəaliyyətinin fasiləsiz davam etdirilməsinin qiymətləndirilməsi və fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına, habelə fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır. Rəhbərlik bu prinsipə riayət edərkən "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarını nəzərə alır. Həmin Qanunun 5-ci və 9-cu maddələrində müvafiq olaraq qeyd olunur ki, publik hüquqi şəxs müflis elan oluna bilməz və publik hüquqi şəxsin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər onun nizamnaməsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

Rəhbərlik Xidmətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır

### Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

• Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.

• Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Xidmətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.

• Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

• Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Xidmətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Xidmətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.

• Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz Xidmətin idarə olunmasına cavabdeh şəxslərin nəzərinə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən etdiyimiz hər hansı əhəmiyyətli çatışmazlıqları çatdırırıq.

Biz həmçinin Xidmətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik. Xidmətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"Abacus Audit and Consulting"**
**MMC-nin direktor (auditoru)** **Rüfət Zeynalov**

10 aprel 2026-cı il
**Bakı, Azərbaycan**

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31.12.2025 AZN | 31.12.2024 AZN |
|---|---|---|---|
| Büdcədən daxilolmalar üzrə gəlirlər | | 8,139,439.00 | 6,330,429.00 |
| Məzənnə fərqindən yaranan gəlir | | - | 28.00 |
| Sair əməliyyat gəlirləri | | - | 195,000.00 |
| **Cəmi** | 5 | **8,139,439.00** | **6,525,457,00** |
| | | | |
| İşçi heyəti üzrə xərclər | | (5,789,067.00) | (5,423,154.00) |
| Amortizasiya xərci | | (1,171,026.00) | (532,271.00) |
| Digər xərclər | | (1,179,346.00) | (570,032.00) |
| Məzənnə fərqindən yaranan xərc | | - | - |
| **Cəmi** | 6 | **(8,139,439.00)** | **(6,525,457.00)** |
| **Əməliyyat mənfəəti** | | - | - |
| | | | |
| Vergidən əvvəlki mənfəət | | - | - |
| Mənfəət vergisi xərcləri | | - | - |
| **Xalis mənfəət** | | - | - |

**Rəhbərlik tərəfindən:**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti Financial Monitoring Service Republic of Azerbaijan

**Zaur Fətizadə**
**İdarə Heyətinin sədri**

**Arzu Nəftəliyeva**
**Maliyyə şöbəsinin rəisi**

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31.12.2025 AZN | 31.12.2024 AZN |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 9 | 3,181,519.00 | 1,845,741.00 |
| Torpaq, tikili və avadanlıqlar | 10 | 6,902,566.00 | 4,456,236.00 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **10,084,085.00** | **6,301,977.00** |
| | | | |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | | 81,293.00 | 62,340.00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 756,740.00 | 4,327,125.00 |
| Digər qısamüddətli aktivlər | 8 | 407,936.00 | 1,288,085.00 |
| **Cəmi qısamüddətli aktivlər** | | 1,245,969.00 | 5,677,550.00 |
| **Cəmi aktivlər** | | **11,330,055.00** | **11,979,527.00** |
| | | | |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | | 10,000.00 | 10,000.00 |
| Kapital ehtiyatları | 13 | 3,217,145.00 | 3,217,145.00 |
| **Cəmi kapital** | | **3,227,145.00** | **3,227,145.00** |
| | | | |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Malsatan və podratçılara kreditor borcları | | (8,586.00) | (8,234.00) |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | - | - |
| Digər maliyyə öhdəlikləri | 12 | (357,698.00) | (268,157.00) |
| Təxirə salınmış gəlir | 11 | (7,736,626.00) | (8,475,989.00) |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **(8,102,910.00)** | **(8,752,380.00)** |
| **Cəmi öhdəliklər** | | **(8,102,910.00)** | **(8,752,380.00)** |
| **Cəmi kapital və öhdəliklər** | | **(11,330,055.00)** | **(11,979,525.00)** |

**Rəhbərlik tərəfindən:**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti Financial Monitoring Service Republic of Azerbaijan

**Zaur Fətizadə**
**İdarə Heyətinin sədri**

**Arzu Nəftəliyeva**
**Maliyyə şöbəsinin rəisi**

# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31.12.2025 AZN | 31.12.2024 AZN |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Büdcədən daxil olan pul vəsaitləri | 5 | 7,400,000.00 | 7,348,749.00 |
| Digər əməliyyatlardan daxil olan pul vəsaitləri | 5 | 173,800.00 | 195,000.00 |
| İşçilərə ödənilən pul vəsaitləri | | (5,690,479.00) | (5,288,047.00) |
| İnzibati və digər ödənişlər üzrə pul vəsaitlərinin xaricolmaları | | (732,061.00) | (1,239,108.00) |
| **Əməliyyat fəaliyyətindən yaranan/(istifadə edilən) xalis pul axını** | | **1,151,260.00** | **1,016,594.00** |
| | | | |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əsas vəsaitlərin alışı nəticəsində pul məxaricləri | 9 | (2,810,983.00) | (76,327.00) |
| Qeyri-maddi aktivlərin alışı üzrə pul məxaricləri | 10 | (1,293,753.00) | (730,571.00) |
| Qeyri-maddi aktivlərlə bağlı əvvəlcədən edilən ödənişlər | | (455,934.00) | (485,865.00) |
| Əsas vəsaitlər ilə bağlı əvvəlcədən edilən ödənişlər | | (160,975.00) | (120,700.00) |
| **İnvestisiya fəaliyyətindən istifadə edilən xalis pul axını** | | **(4,721,645.00)** | **(1,413,463.00)** |
| Məzənnə fərqi | | - | 28.00 |
| | | | |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| Səhmdarların kapital qoyuluşundan daxil olan pul vəsaitləri | | - | - |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan xalis pul axını** | | - | - |
| | | | |
| **İl ərzində pul vəsaitləri və onların ekvivalentlərində xalis artım(azalma)** | | **(3,570,385)** | **(396,841)** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **4,327,125.00** | **4,723,966.00** |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 7 | **756,740.00** | **4,327,125.00** |

Rəhbərlik tərəfindən:

Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidməti Financial Monitoring Service Republic of Azerbaijan

**Zaur Fətizadə**
**İdarə Heyətinin sədri**

**Arzu Nəftəliyeva**
**Maliyyə şöbəsinin rəisi**

**AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Digər kapital ehtiyatları | Cəmi |
|---|---|---|---|
| | **AZN** | **AZN** | **AZN** |
| **01 Yanvar 2024 tarixinə qalıq** | **10,000.00** | **3,217,145.00** | **3,227,145.00** |
| 2024-cü il üzrə yaranmış mənfəət | - | - | 0 |
| **31 Dekabr 2024 tarixinə qalıq** | **10,000.00** | **3,217,145.00** | **3,227,145.00** |
| 2025-ci il üzrə yaranmış mənfəət | - | - | 0 |
| **31 Dekabr 2025 tarixinə qalıq** | **10,000.00** | **3,217,145.00** | **3,227,145.00** |

**Rəhbərlik tərəfindən:**

Zaur Fətizadə
İdarə Heyətinin sədri

Arzu Nəftəliyeva
Maliyyə şöbəsinin rəisi

GİRİŞ
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)

## 1. Giriş

**Xidmət və onun fəaliyyəti**

Bu hesabatlar "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti"-nin maliyyə hesabatlarını əks etdirir.

Xidmət Azərbaycan Respublikası Prezidentinin 25 may 2018-ci il tarixli 95 nömrəli Fərmanı ilə yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2018-ci il tarixli 215 nömrəli Fərmanı ilə Xidmətin Nizamnaməsi və strukturu təsdiq edilmişdir.

Xidmətin fəaliyyətinin əsas məqsədi Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq üçün qanunla müəyyənləşdirilmiş tələblərə riayət olunmasına nəzarət etmək, müvafiq sahədə vahid tənzimləməni həyata keçirmək, habelə öhdəlik daşıyan şəxslərin, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının və digər dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək, şəffaflığı və səmərəliliyi təmin etməkdir. Xidmət bu Nizamnamədə müəyyən edilmiş fəaliyyəti həyata keçirərkən müvafiq sahədə qabaqcıl beynəlxalq standartları əsas götürür.

Xidmətin nizamnamə kapitalı 10,000 manat təşkil edir.

Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi İdarə Heyəti həyata keçirir.

31 dekabr 2025-ci il tarixinə Xidmətin İdarə Heyətinin sədri cənab Zaur İntiqam oğlu Fətizadədir.

Xidmətin inzibati binası AZ1014, Azərbaycan Respublikası, Bakı şəhəri, Bül-bül prospekti 40 qeydiyyat ünvanında yerləşir.

Xidmətin aktivləri və öhdəlikləri Azərbaycan Respublikasında yerləşir.

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında müstəqil struktur vahidi olaraq Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanı ilə yaradılmışdır. 2016-cı il 3 fevral tarixində yeni publik hüquqi şəxs – Maliyyə Bazarlarına Nəzarət Palatası – yaradılmış və Maliyyə Monitorinqi Xidməti onun tərkibinə daxil edilməklə Palataya maliyyə monitorinqi orqanı funksiyası verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 may tarixli 95 nömrəli Fərmanına uyğun olaraq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərdə dövlət qurumlarının potensialının gücləndirilməsi və bu sahədə fəaliyyətin effektiv əlaqələndirilməsini təmin edən koordinasiya mexanizminin yaradılması, onlar arasında əməkdaşlığın və məlumat mübadiləsi sisteminin səmərəliliyinin artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi məqsədi ilə Maliyyə Monitorinqi Xidməti publik hüquqi şəxs yaradılmışdır.

## 2.Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları

### Uyğunluq haqqında hesabat

Hazırkı hesabata əlavə edilən maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmışdır.

### Qiymətləndirmənin əsasları

Maliyyə hesabatları ilkin dəyər uçotuna əsasən hazırlanmışdır.

### Funksional və təqdimat valyutası

Xidmətin funksional valyuta vahidi Azərbaycan manatıdır (bundan sonra AZN) və AZN Azərbaycan Respublikasının milli valyutası olaraq baş verən hadisələrin əksəriyyətini və onlarla bağlı vəziyyətlərin iqtisadi mahiyyətini əks etdirir. AZN həmçinin hazırkı maliyyə hesabatlarının məqsədləri üçün təqdimat valyutasıdır. AZN ilə ifadə edilən maliyyə məlumatları ən yaxın tam rəqəmədək yuvarlaqlaşdırılmışdır.

### Ehtimalların və mülahizələrin tətbiqi

MHBS-yə uyğun maliyyə hesabatlarının hazırlanması Rəhbərlikdən uçot siyasətinə və təqdim edilmiş aktivlərin, öhdəliklərin, gəlir və xərclərin məbləğinə təsir göstərən ehtimalların, fərziyyələrin və mülahizələrin irəli sürülməsini tələb edir. Faktiki nəticələr həmin ehtimallardan fərqlənə bilər.

Ehtimallar və fərziyyələr mütəmadi qaydada nəzərdən keçirilir. Mühasibatlıq ehtimallarında dəyişikliklər həmin dəyişikliklərin edildiyi dövrdə və təsir göstərdikləri hər hansı gələcək dövrlərdə əks olunur.

### Qeyri-monetar kapital qoyuluşunun tanınması

16 saylı MUBS "Əmlak, tikili və avadanlıqlar" – müəssisələrdən natura formasında əldə edilmiş əmlak, tikili və avadanlığın vahidini ədalətli dəyərdə kapital şəklində hesablanmasını tələb edir.

### Fasiləsizlik prinsipi

Bu Maliyyə Hesabatları Xidmətin yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Xidmət yaxın gələcəkdə ləğv olunmasına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Xidmətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir.

Davamlılıq prinsipi təxminlərin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

## 3. Əsas uçot siyasəti

### Xarici valyuta

Xarici valyuta ilə əməliyyatlar əməliyyat tarixindəki rəsmi valyuta məzənnələrinə uyğun Xidmətin müvafiq funksional valyutasına çevrilir. Xarici valyutada olan monetar aktiv və öhdəliklər hesabat tarixinə həmin tarixdə mövcud olan məzənnəyə əsasən funksional valyutaya çevrilir. Monetar maddələr üzrə xarici valyuta gəliri ya zərəri dövrün əvvəlinə olan və dövr ərzində effektiv faiz və ödənişlərə uyğunlaşdırılmış funksional valyutada amortizasiya edilmiş dəyərlə dövrün sonuna mövcud olan valyuta məzənnəsi ilə çevrilmiş xarici valyutanın amortizasiya edilmiş dəyəri arasındakı fərqdir. Xarici valyutalarda ədalətli dəyərlə ölçülən qeyri-monetar aktivlər və öhdəliklər ədalətli dəyərin müəyyən olunduğu tarixdə mövcud olan valyuta məzənnəsinə əsasən funksional valyutaya çevrilir. Xarici valyutada ilkin dəyəri ilə ölçülən qeyri-monetar maddələr əməliyyat günündə mövcud olan valyuta məzənnəsini istifadə etməklə çevrilir. Çevrilmə zamanı ortaya çıxan məzənnə fərqləri mənfəət və zərər hesabatında tanınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitlərinə və onların ekvivalentlərinə banklarda və xəzinə hesabında saxlanılan vəsaitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri maliyyə vəziyyəti haqqında hesabatda amortizasiya olunmuş dəyərdə tanınır.

Aşağıda qeyd olunmuş uçot siyasəti maliyyə hesabatlarında əks edilmiş dövrə Xidmət tərəfindən tətbiq olunur.

**9 saylı MHBS *"Maliyyə Alətləri"***

Bu bölmənin əsas məqsədi maliyyə alətləri üzrə qiymətləndirmə prinsiplərinin əks etdirilməsidir.

**Əsas anlayışlar**

Maliyyə aləti bir müəssisənin maliyyə aktivinin və digər müəssisənin kapital aləti və ya maliyyə öhdəliyinin yaranmasına səbəb olan hər hansı müqavilədir.

Maliyyə aktivi aşağıda göstərilən bütün aktivlərdir:

- pul vəsaitləri;
- aşağıdakılar ilə əlaqədar müqavilə hüququ:
  - digər müəssisədən pul vəsaitləri və ya digər maliyyə aktivini qəbul etmək; və ya
  - müəssisə üçün potensial olaraq əlverişli şərtlər əsasında öz maliyyə aktivlərini və ya maliyyə öhdəliklərini digər müəssisənin maliyyə aktivləri və ya öhdəliklərilə mübadilə etmək; və ya

Maliyyə öhdəliyi aşağıda göstərilən bütün öhdəliklərdir:

- müqavilə öhdəliyi üzrə:
  - müəssisə üçün potensial olaraq əlverişli olmayan şərtlər əsasında digər müəssisə ilə maliyyə öhdəlikləri və ya maliyyə aktivlərini mübadilə etmək; və ya

**Maliyyə alətlərinin təqdimatı**

Öhdəliklər və kapital

Maliyyə alətlərinin emitenti, ilkin tanınma zamanı bu aləti və ya onun tərkib hissələrini müqavilə şərtlərinin mahiyyətinə və maliyyə öhdəlikləri, maliyyə aktivləri və kapital alətləri anlayışlarına uyğun olaraq maliyyə öhdəlikləri, maliyyə aktivləri və ya kapital alətləri kimi təsnifatlandırılır.

Əgər müəssisə öz borcunu gələcək dövrdə ödəməlidirsə və bundan praktiki olaraq boyun qaçıra bilməzsə, onda bu borclar öhdəliklər kimi uçota alınır. Lakin müəssisə öz borclarında praktiki olaraq boyun qaçıra bilərsə,o halda bu borc kapital altında təqdim edilir.

**Maliyyə öhdəliklərinin təsnifatı**

Müəssisə maliyyə öhdəliklərini amortizasiya edilmiş dəyər metodu ilə uçota alır.

**Maliyyə öhdəliklərinin təqdimatı**

Maliyyə öhdəlikləri aşağıdakı formada maliyyə vəziyyəti haqqında hesabatda əks edilir:

| Maliyyə öhdəliyi | Xüsusiyyət | Təqdimat |
|---|---|---|
| Malsatan və podratçılara olan kreditor borcları | Müəssisənin əsas fəaliyyəti ilə bağlıdır | Qısamüddətli öhdəliklər |
| İşçilərə olan kreditor borcları | Müəssisənin əsas fəaliyyəti ilə bağlıdır | Qısamüddətli öhdəliklər |

**Xarici valyutada olan maliyyə öhdəlikləri**

Xarici valyutada olan maliyyə öhdəlikləri ilkin olaraq əməliyyatın baş verdiyi tarixdəki məzənnə ilə qeyd edilir, daha sonra ödəniş və ya dövrün sonunda həmin tarixlərdəki məzənnə ilə yenidən hesablanır və məzənnələr arasındakı fərq mənfəət və ya zərər haqqında hesabatda "xarici valyutanın dəyişməsi üzrə gəlir/(zərər)" maddəsi altında təqdim edilir.

**Əvəzləşdirmə**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

**Əmlak və avadanlıqlar**

**Torpaq, tikili və avadanlıqların tanınması və ilkin ölçülməsi**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti-nin torpaq, tikili və avadanlıqlarını yalnız aşağıdakı 2 şərt ödənildikdə uçotda tanıyır:
1) həmin obyektlə bağlı gələcək iqtisadi səmərənin müəssisəyə axını ehtimal edildikdə;
2) obyektin dəyəri etibarlı əsasla qiymətləndirilə bildikdə.

İlkin ölçülmədə torpaq, tikili və avadanlıqlar ilkin dəyərlə tanınılır. 3-cü tərəflərdən alınan torpaq, tikili və avadanlıqlarının ilkin dəyərinə aşağıdakı məsrəflər daxil edilir:
- Alış qiyməti ticarət endirimləri çıxılmaqla
- Quraşıdırlma xərci
- Daşınma xərci
- Əvəzləşdirilməyən vergilər
- Torpaq,tikili və avadanlıqların alışı ilə bağlı olan digər xərclər

**Torpaq, tikili və avadanlıqlarının ilkin dəyərinə aşağıdakı xərclər əlavə edilmir:**

- Təlim xərcləri;
- İnzibati xərclər

Müəssisə özünün tikdiyi torpaq, tikili və avadanlıqlara da eyni prinsipləri şamil edir.

Müəssisəyə əvəzsiz olaraq hər hansı bir torpaq, tikili və avadanlıqlar verilərsə, bu aktivlər balansda nominal dəyər 0.01 AZN olaraq tanınır.

**Torpaq, tikili və avadanlıqların sonrakı ölçülməsi**

Müəssisə torpaq, tikili və avadanlıqlarını sonrakı ölçülmədə qalıq dəyəri üzərindən uçotda əks etdirir və qalıq dəyəri bütün kateqoriyalar üzrə ilkin dəyər modeli üzrə hesablanır. Lakin istisna hal kimi müəssisənin balansına transfer olunmuş uzunmüddətli aktivlər bazar qiymətinə gətirilməli daha sonra uçotda tanınmalıdır. Müəssisənin kateqoriyalar üzrə tətbiq etdiyi modellər aşağıdakı kimidir:

| Kateqoriya | Ölçülmə modeli |
|---|---|
| Bina və tikililər | İlkin dəyər modeli |
| Kompüter və rabitə avadanlıqları | İlkin dəyər modeli |
| Nəqliyyat vasitələri | İlkin dəyər modeli |
| Mebel | İlkin dəyər modeli |
| Ofis avadanlıqları | İlkin dəyər modeli |

*İlkin dəyər modeli*

Aktiv kimi tanındıqdan sonra torpaq, tikili və avadanlıqlar hər hansı yığılmış amortizasiya və qiymətdən düşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınırlar.

**Amortizasiya**

Torpaq, tikili və avadanlıqlar sonrakı ölçülmədə faydalı istismar müddəti boyunca amortizasiya edilir.

Hər dövr üzrə amortizasiya məsrəfləri digər aktivin balans dəyərinə daxil edilməzsə, mənfəət və ya zərər haqqında hesabatda tanınmalıdır.

*Amortizasiya edilmiş dəyər və amortizasiya müddəti*

Aktivin amortizasiya edilmiş dəyəri bu aktivin son qalıq dəyəri çıxılmaqla tanınır. Təcrübədə, aktivin son qalıq dəyəri adətən cüzi olduğundan amortizasiya edilmiş dəyərin müəyyən olunmasında əhəmiyyətli sayılmır.

Aktivin amortizasiya edilmiş dəyəri, yəni son qalıq dəyəri çıxılmış dəyər onun faydalı istismar müddəti üzrə sistematik olaraq bölüşdürülür.

*Amortizasiya metodu*

Müəssisə torpaq, tikili və avadanlıqları üzrə düz xətt amortizasiya metodunu tətbiq edir. Düz xətt metodu, aktivin son qalıq dəyərinin dəyişmədiyi təqdirdə, onun faydalı istismar dövrü ərzində daimi ayırmaların həyata keçirilməsi ilə nəticələnir. Amortizasiya məbləği düz xətt metoduna uyğun olaraq kateqoriyalar üzrə təyin edilmiş faydalı istismar müddətlərinə uyğun amortizasiya edilir. Bəzən eyni kateqoriyanın daxilində aktivlərin fərqli faydalı istismar müddətləri ola bilər. Torpaq, tikili və avadanlıqların tipindən, xüsusiyyətindən və texniki göstəricilərindən aslı olaraq texniki mütəxəssislərin təsdiqi ilə faydalı istismar müddətlərinə xüsusi yanaşma tətbiq oluna bilər. Müəssisə torpaq, tikili və avadanlıqları kateqoriyalar üzrə aşağıdakı faydalı istismar müddətləri boyunca amortizasiya edir:

| Kateqoriya | Faydalı istismar müddəti |
|---|---|
| Bina və tikililər | 50 ilə-dək |
| Komputer və rabitə avadanlıqları | 5-10 ilə-dək |
| Nəqliyyat vasitələri | 10 ilə-dək |
| Digər əsas vəsaitlər | 3-10 ilə-dək |

## Qeyri-maddi aktivlər

### Qeyri-maddi aktivlərin ümumi təsviri

Qeyri-maddi aktivlər fiziki mahiyyəti olmayan müəyyən edilə bilən qeyri-monetar aktivlərdir. Onlar keçmiş hadisələr nəticəsində müəssisə tərəfindən nəzarət olunan və gələcəkdə iqtisadi səmərə gözlənilən resursu təmsil edir.

Qeyri-maddi aktivlər üçün tanınma meyarları aşağıdakılardır:

a) müəssisəyə gələcək iqtisadi səmərələrin daxil olacağı ehtimalı var;
b) aktivin dəyəri etibarlı şəkildə ölçülə bilər;
c) müəssisə aktivə o zaman nəzarət etmiş olur ki, qeyd olunan resurs üzrə gələcək iqtisadi mənfəət əldə etmək və digərlərinin həmin mənfəətə çıxışını məhdudlaşdırmaq qüvvəsinə malik olsun.

### Qeyri-maddi aktivlərin tanınması və ilkin ölçülməsi

Müəssisə qeyri-maddi aktivlərini yalnız aşağıdakı 3 şərt ödənildikdə uçotda tanıyır:

1) həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin müəssisəyə axını ehtimal edildikdə;
2) aktivin dəyəri etibarlı əsasla qiymətləndirilə bildikdə;
3) aktiv müəyyən edilə bilmə meyarını ödədikdə.

Aktiv yalnız aşağıdakı hallarda müəyyən edilə bilmə meyarını ödəyir:

a) aktiv ayrılandır, yəni, aktiv müəssisədən ayrıla və ya bölünə, müvafiq müqavilə əsasında, fərdi qaydada və ya öhdəlik kimi birlikdə satıla, köçürülə, lisenziyalaşdırıla, icarəyə verilə və mübadilə edilə bilər; və ya müəssisənin bunu etmək niyyətində olmasından asılı olmayaraq və ya;
b) hüquqların həvalə edilmə mümkünlüyü və ya onların müəssisədən ya digər hüquqlar və ya öhdəliklərdən ayrıca olmasından asılı olmayaraq, müqavilə və ya aktiv digər hüquqlardan törəyə bilər.

*Ayrıca əldə etmə*

Adətən müəssisənin ayrıca qeyri-maddi aktiv almaq üçün ödədiyi qiymət həmin aktivlə bağlı müəssisəyə gələcəkdə daxil olması ehtimal edilən iqtisadi səmərəni əks etdirir və ehtimalın effekti özünü aktivin ilkin dəyərində büruzə verir. Bu səbəbdən, ayrıca alınan qeyri-maddi aktivlər üçün tanınma meyarının yerinə yetirilməsi nəzərdə tutulur.

*Ayrıca alınmış qeyri-maddi aktivlərin ilkin dəyəri*

Ayrıca alınmış qeyri-maddi aktivlərin ilkin dəyərinə aşağıdakı məsrəflər daxil edilir:

a) onun əldə etmə qiyməti, satış endirimləri çıxıldıqdan sonra əldə etmə ilə bağlı əvəzləşdirilməyən vergilər də daxil olmaqla;
b) hər-hansı aktivin ehtimal olunan istifadə üçün yaradılmasına sərf olunan bütün birbaşa məsrəflər.

Müəssisə əvəzsiz olaraq hər hansı bir qeyri-maddi aktiv əldə edərsə, bu aktivlər balansda nominal dəyər 0.01 AZN olaraq tanınır.

*Qeyri-maddi aktivlərin ilkin dəyərinin bir hissəsini təşkil etməyən məsrəflər aşağıdakılardır:*

- inzibati və digər əlavə xərclər.

**Qeyri-maddi aktivlərin sonrakı ölçülməsi**
Müəssisə qeyri-maddi aktivlərini sonrakı ölçülmədə qalıq dəyəri üzərindən uçotda əks etdirir. Qalıq dəyəri bütün kateqoriyalar üzrə ilkin dəyər modeli üzrə hesablanır.

*İlkin dəyər modeli*

Aktiv kimi tanındıqdan sonra qeyri-maddi aktiv hər hansı yığılmış amortizasiya və qiymətdən düşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınırlar.

*Amortizasiya*

Qeyri-maddi aktivlər sonrakı ölçülmədə faydalı istismar müddəti boyunca amortizasiya edilir.

Hər dövr üzrə amortizasiya məsrəfləri mənfəət və ya zərər haqqında hesabatda tanınır.

*Amortizasiya müddəti və amortizasiya üsulu*

- Bütün qeyri-maddi aktivlərə şamil edilir.
- Amortizasiya, aktiv istifadəyə hazır olan kimi, yəni o, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün lazım olan yerdə və vəziyyətdə olduqda başlanılır;
- Amortizasiya düz xətt metodundan istifadə etməklə aktivlərin faydalı istifadə müddətinin ən yaxşı təxminləri əsasında hesablanır.
- Müəssisə 1-20 il üzərindən düz xətt metodundan istifadə edərək qeyri-maddi aktivlərin amortizasiyasını hesablayır;

*Faydalı istifadə müddəti*

Qeyri-maddi aktivin uçotu onun faydalı istifadə müddətinə əsaslanır.

Proqram təminatı və lisenziyalar

*Proqram təminatı* - Qanuni müəlliflik və qeyri-müəlliflik hüququ altında kompüter proqramıdır;
*Lisenziya* - istifadəçilərin hüquqları və şərtləri üçün müqavilədir;

*Qeyri-maddi aktivlərin istismardan çıxarılması və xaricolması (satılması)*
Qeyri-maddi aktivin tanınması aşağıdakı hallarda dayandırılır:
a) xaricolma zamanı;
b) aktivdən istifadəsindən və ya xaricolmasindən hər hansı gələcək iqtisadi səmərənin daxil olması gözlənmədikdə.

**İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar**

***İşçilərin mükafatlandırılması anlayışları***

***İşçilərin mükafatlandırılması*** işçilər tərəfindən göstərilən xidmətlər və ya əmək münasibətlərinin xitam olunması əvəzində müəssisə tərəfindən təqdim olunan kompensasiyaların bütün formalarıdır.
***İşçilərin qısamüddətli mükafatlandırılması*** işçilərin müvafiq xidmətləri göstərdiyi dövrdən sonra on iki ay ərzində tam ödənilməsi gözlənilən mükafatlardır (işdən çıxma müavinətləri istisna olmaqla).İşçinin xidmət göstərdiyi dövrdən sonra 12 ay ərzində ödənilməsi gözlənilən halda, işçilərin qısamüddətli mükafatlandırılmasına aşağıdakı maddələr daxildir:

- işçilərə ödənilən əmək haqqları və sosial müdafiə fonduna ayırmalar;
- hər il üçün məzuniyyətlər və xəstəlik ilə bağlı ödənişli məzuniyyət;
- əmək haqqında əlavələr

**Məzuniyyətin növləri:**

**İşçilərin məzuniyyət hüququ aşağıdakı məzuniyyət növləri ilə təmin edilir:**

a) əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti;

b) ödənişsiz məzuniyyət;

c) təhsil məzuniyyəti;

d) yaradacılıq məzuniyyəti.

**Əmək məzuniyyəti və onun verildiyi iş ili:**

1. Əmək məzuniyyəti — işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi müddəti qanunvericilikdə nəzərdə tutulandan az olmayan istirahət vaxtıdır. Əmək məzuniyyətinin müddəti təqvim günü ilə hesablanır.

2. Əmək məzuniyyəti müvafiq peşə (vəzifə) üzrə əmək funksiyasını yerinə yetirən işçilərə verilən illik əsas məzuniyyətdən və istehsalın, əməyin xarakterinə və əmək stajına görə, habelə uşaqlı qadınlara verilən əlavə məzuniyyətdən ibarət olub, istər birlikdə, istərsə də ayrılıqda verilə bilər.

3. Əmək məzuniyyəti hər il müvafiq iş ili üçün verilir. İş ili işçinin işə götürüldüyü gündən başlanır və növbəti ilin həmin günü başa çatır. Əgər işçinin iş ili onun əmək məzuniyyətinə çıxmaq üçün müraciət etdiyi vaxtda başlanmayıbsa, onda ona əmək məzuniyyəti yalnız iş ili başlanandan sonra verilə bilər. Bir iş ilinə görə yalnız bir əmək məzuniyyəti verilə bilər. Təqvim ili ərzində işçinin iki iş ilinə görə məzuniyyət hüququ olduqda o, həmin təqvim ilində hər iki iş ilinə görə məzuniyyətdən birlikdə və ya ayrı-ayrılıqda istifadə edə bilər.

**Ehtiyatlar**

Mal-material ehtiyatlarına aşağıdakı aktivlər aiddir:
- azqiymətli və tezköhnələn əşyalar

**Mal-material ehtiyatlarının ilkin tanınması**

Mal-material ehtiyatları ilkin olaraq ilkin dəyərdə tanınır. İlkin dəyərə alış məsrəfləri daxil edilir.
Alış məsrəflərinə aiddir:
- Mal-material ehtiyatlarının alış məsrəflərinə alış qiyməti, digər vergilər, daşınma, boşaldılma ilə birbaşa bağlı olan digər məsrəflər daxildir.

**Aşağıda qeyd olunmuş məsrəflər ehtiyatların ilkin dəyərinə daxil edilmir və yarandığı dövrdə xərc kimi tanınır:**

- İnzibati və malların alınması ilə əlaqəli olmayan digər xərclər

**Mal-material ehtiyatlarının sonrakı qiymətləndirilməsi**

Ehtiyatlar sonrakı dövrdə ilkin dəyərlə ölçülür.

**Mal-material ehtiyatlarının xərc kimi tanınması**

Ehtiyatlar istifadəyə verildikə balansdan silinir və mənfəət və ya zərər haqqında hesabatda xərc kimi tanınır.

**Dövlət büdcəsindən ayırmalar**

Xidmətə bu günədək dövlət büdcəsindən ayırmalar təxirə salınmış gəlirlər kimi təsnif olunur və maliyyə hesabatında öhdəlik bölməsində tanınır. Dövlət büdcəsindən ayırmalar Xidmətin əməliyyat xərclərini qarşılamaq məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsindən daxil olan pul ayırmalarından ibarətdir.

**Vergilər**

Xidmət hüquqi şəxs kimi Vergi Məcəlləsinin 106.1.4-cü bəndinə əsasən mənfəət vergisindən, 199.1-ci bəndinə uyğun olaraq əmlak vergisindən və 207.1.2-ci bəndinə uyğun olaraq torpaq vergisinin ödənilməsi öhdəliyindən azaddır.

Xidmət işçilərə əmək haqqı və oxşar ödənişlər üzrə fərdi gəlir vergisini və sosial ödənişləri hesablayır və bəyan edir. Hazırki maliyyə hesabatları rəhbərliyin vergi məsələləri üzrə ehtimal və təxminlərinə istinad edilərək hazırlanmışdır.

## 4. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilmiş uçot siyasəti, 31 dekabr 2025-ci il tarixində bitən il üçün Xidmətin maliyyə hesabatlarının hazırlanmasında uçot qaydaları ilə eynidir. 31 dekabr 2025-ci il tarixində başa çatan illik hesabat dövrü üçün tətbiqi icbari olmayan yeni və yenidən işlənmiş standartların və şərhlərin Xidmət tərəfindən erkən tətbiqi həyata keçirilməmişdir.

## 5. Gəlir

| | 31 dekabr 2025<br>AZN | 31 dekabr 2024<br>AZN |
|---|---|---|
| Büdcədən daxilolmalar üzrə gəlirlər | 8,139,439.00 | 6,330,429.00 |
| Məzənnə fərqindən yaranan gəlir | - | 28.00 |
| Sair əməliyyat fəaliyyətindən gəlir | - | 195,000.00 |
| **Cəmi gəlir** | **8,139,439.00** | **6,525,457.00** |

Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsinin müvafiq maddələrinə əsasən Xidmət sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz. O ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur və öz fəaliyyəti çərçivəsində Azərbaycan Hökümətinin maraqlarına xidmət edir. Fəaliyyətinin təmin edilməsi məqsədilə Maliyyə Nazirliyi və Xidmət arasında imzalanmış müqaviləyə əsasən əvvəlcədən müəyyən edilmiş məbləğlərdə Xidmətə aylıq ödənişlər həyata keçirilir.

## 6. Xərclər

| | 31 dekabr 2025<br>AZN | 31 dekabr 2024<br>AZN |
|---|---|---|
| İşçi heyəti üzrə xərclər | (5,789,067.00) | (5,423,154.00) |
| Amortizasiya xərci | (1,171,026.00) | (532,271.00) |
| Digər xərclər | (1,179,346.00) | (570,032.00) |
| **Cəmi xərc** | **(8,139,439.00)** | **(6,525,457.00)** |

## 7. Pul vəsaitləri və onların ekvivalentləri

| | 31 dekabr 2025<br>AZN | 31 dekabr 2024<br>AZN |
|---|---|---|
| Banklarda olan pul vəsaitləri | 756,740.00 | 4,327,125.00 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **756,740.00** | **4,327,125.00** |

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| | **31 dekabr 2025**<br>AZN | **31 dekabr 2024**<br>AZN |
|---|---|---|
| Nə vaxtı keçmiş, nə dəyərsizləşmiş | | |
| - Top 15 Azərbaycan bankları | 756,739.62 | 4,327,124.60 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **756,739.62** | **4,327,124.60** |

Xidmətin pul vəsaitləri və onların ekvivalentlərinin 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə valyuta üzrə bölgüsü aşağıdakı cədvəldə göstərilir:

| | **31 dekabr 2025**<br>AZN | **31 dekabr 2024**<br>AZN |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | | |
| -AZN | 756,739.62 | 4,327,124.60 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **756,739.62** | **4,327,124.60** |

## 8. Digər qısamüddətli aktivlər

| | **31 dekabr 2025**<br>**AZN** | **31 dekabr 2024**<br>**AZN** |
|---|---|---|
| Verilmiş qısamüddətli avanslar | 1,204.00 | 607,299,00 |
| Gələcək hesabat dövrünün xərcləri | 393,100.00 | 662,312,00 |
| Təhtəlhesab məbləğ | 11,336.00 | 6,349,00 |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmə | - | 11,383,00 |
| Əməyin ödənişi üzrə işçi heyətinə artıq ödəmə | 2,296.00 | 742,00 |
| **Cəmi digər qısamüddətli aktivlər** | **407,936.00** | **1,288,085,00** |

## 9. Torpaq, tikili və avadanlıqlar

| | Bina | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Məsrəflərin kapitallaşdırılması | Cəmi |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | |
| **01 Yanvar 2024 tarixinə qalıq** | **2,916,000.00** | **782,263.00** | **129,180.00** | **138,405.00** | **1,219,853.00** | **5,185,701.00** |
| Alışlar | - | 1,287,390.00 | - | 8,790.00 | (1,219,853.00) | 76,327.00 |
| **31 Dekabr 2024 tarixinə dəyər** | **2,916,000.00** | **2,069,654.00** | **129,180.00** | **147,195.00** | - | **5,262,029.00** |
| Alışlar | | 2,337,285.00 | 122,460.00 | 312,536.00 | | 2,772,281.00 |
| **31 Dekabr 2025 tarixinə dəyər** | **2,916,000.00** | **4,406,939.00** | **251,640.00** | **459,731.00** | - | **8,034,310.00** |
| | | | | | | |
| Yığılmış amortizasiya | | | | | | |
| **01 Yanvar 2024 tarixinə qalıq** | **296,460.00** | **157,007.00** | **21,421.00** | **49,736.00** | - | **524,624.00** |
| İl üzrə amortizasiya xərci | 58,320.00 | 188,906.00 | 14,013.00 | 19,929.00 | - | **281,168.00** |
| **31 Dekabr 2024 tarixinə dəyər** | **354,780.00** | **345,913.00** | **35,434.00** | **69,666.00** | - | **805,793.00** |
| İl üzrə amortizasiya xərci | 58,320.00 | 224,610.00 | 21,768.00 | 21,253.00 | - | **325,951.00** |
| **31 Dekabr 2025 tarixinə dəyər** | **413,100.00** | **570,523.00** | **57,202.00** | **90,919.00** | - | **1,131,744.00** |
| | | | | | | - |
| **31 Dekabr 2024 tarixinə qalıq dəyəri** | **2,561,220.00** | **1,723,741.00** | **93,746.00** | **77,529.00** | - | **4,456,236.00** |
| **31 Dekabr 2025 tarixinə qalıq dəyəri** | **2,502,900.00** | **3,836,416.00** | **194,438.00** | **368,812.00** | - | **6,902,566.00** |

## 10. Qeyri-maddi aktivlər

| | Proqram təminatı | Lisenziyalar | Məsrəflərin kapitallaşdırılması | Cəmi |
|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | |
| 01 Yanvar 2024 tarixinə qalıq | **603,488.00** | **152,237.00** | **501,276.00** | **1,257,001.00** |
| Alışlar | 1,243,720.00 | 977.00 | (501,276.00) | **743,421.00** |
| **31 Dekabr 2024 tarixinə dəyər** | **1,847,208.00** | **153,214.00** | - | **2,000,422.00** |
| Alışlar | 1,295,640.00 | 207,290.00 | - | **1,502,930.00** |
| **31 Dekabr 2025 tarixinə dəyər** | **3,142,848.00** | **360,504.00** | - | **3,503,352.00** |
| | | | | |
| **Yığılmış amortizasiya** | | | | |
| 01 Yanvar 2024 tarixinə qalıq | **36,876.00** | **28,363.00** | - | **65,239.00** |
| İl üzrə amortizasiya xərci | 59,283.00 | 30,160.00 | - | **89,443.00** |
| **31 Dekabr 2024 tarixinə dəyər** | **96,159.00** | **58,523.00** | - | **154,682.00** |
| İl üzrə amortizasiya xərci | 136,669.00 | 30,482.00 | - | **167,151.00** |
| **31 Dekabr 2025 tarixinə dəyər** | **232,828.00** | **89,005.00** | - | **321,833.00** |
| | | | | |
| **31 Dekabr 2024 tarixinə qalıq dəyəri** | **1,751,049.00** | **94,691.00** | - | **1,845,741.00** |
| **31 Dekabr 2025 tarixinə qalıq dəyəri** | **2,910,020.00** | **271,499.00** | - | **3,181,519.00** |

## 11. Təxirə salınmış gəlir

| | 31 dekabr 2025 AZN | 31 dekabr 2024 AZN |
|---|---|---|
| Təxirə salınmış gəlir | 7,736,626.00 | 8,475,989.00 |
| **Cəmi təxirə salınmış gəlir** | **7,736,626.00** | **8,475,989.00** |

## 12. Digər maliyyə öhdəlikləri

| | 31 dekabr 2025 AZN | 31 dekabr 2024 AZN |
|---|---|---|
| Malsatan və podratçılarla | 8,586.00 | 8,234.00 |
| İşçi heyəti ilə hesablaşmalar | 357,698.00 | 268,157.00 |
| **Cəmi digər maliyyə öhdəlikləri** | **366,284.00** | **276,391.00** |

## 13. Digər kapital ehtiyatları

31 dekabr 2025-ci il tarixinə 3,217,145 AZN məbləğində olan digər kapital, müvafiq olaraq yenidən təşkilatlanmanın nəticəsi kimi keçmiş Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasından Xidmətin mülkiyyətinə köçürülmüş əmlak, avadanlıq və qeyri-maddi aktivləri əks etdirir.

## 14. Əlaqəli tərəflərlə əməliyyatlar

Xidmət dövlətə məxsusdur və fəaliyyəti zamanı müxtəlif dövlət orqanları (vergi və sosial müdafiə orqanları) ilə bir sıra əməliyyatlar həyata keçirmişdir.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərində insan resursları üzrə xərclərdə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir.

Rəhbərliyə ödənişlər haqqında məlumat:

| | 2025 Əlaqəli tərəflər | 2024 Əlaqəli tərəflər |
|---|---|---|
| **Rəhbər şəxslərlə hesablaşmalar:** | | |
| Qısamüddətli işçilik xərcləri | 575,431.00 | 557,096.00 |

## 15. Risklərin idarə edilməsi, korporativ idarəetmə və daxili nəzarət

### Daxili nəzarət siyasəti və prosedurları

Rəhbərlik Xidmətin əməliyyatlarının həcminə və xarakterinə uyğun olan daxili nəzarət sistemlərinin işlənib hazırlanması, icrası və saxlanmasına görə məsuliyyət daşıyır. Daxili nəzarət sistemlərinin məqsədi aşağıdakıları təmin etməkdir:

- Risklərin düzgün və hərtərəfli qiymətləndirilməsi və idarə olunması;
- Düzgün rəhbərlik, mühasibatlıq və maliyyə hesabatı funksiyaları, o cümlədən əməliyyatların düzgün təsdiqi, emalı və qeydə alınması;
- Mühasibatlıq qeydlərinin, rəhbərlik məlumatının, normativ hesabatların tamlığı, dəqiqliyi və vaxtında hazırlanması;

- İnformasiya texnologiyaları sistemlərinin etibarlılığı, məlumatlar və sistemlərin bütövlüyü və mühafizəsi;
- Saxtakar və ya qeyri-qanuni hərəkətlərin, o cümlədən aktivlərin mənimsənilməsinin qarşısının alınması.

**Qanun və qaydaların tələblərinə uyğunluq**

Rəhbərlik risklərin aşkarlanması və qiymətləndirilməsi, nəzarət sistemlərinin yaradılması və onların səmərəliliyinin yoxlanılmasına görə məsuliyyət daşıyır. Rəhbərlik Xidmətin daxili nəzarət sistemlərinin səmərəliliyinə nəzarət edir və mütəmadi olaraq əlavə nəzarət sistemləri tətbiq edir, yaxud zəruri hesab olunduqda, mövcud nəzarət sistemlərinə düzəlişlər edir.

## 16. Likvidlik riski

Likvidlik riski Müəssisənin ödəmə vaxtı çatmış maliyyə öhdəliklərini yerinə yetirə bilməyəcəyi riskidir. Likvidliyin idarə edilməsinə Müəssisənin yanaşması həm normal, həm də stressli şəraitdə, qəbul edilməyən zərərlər çəkməyərək və ya Müəssisənin nüfuzuna ziyan vurmayaraq, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir. Likvidlik riskini idarə edərkən, Müəssisə kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlayır, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət edir.

Likvidlik riskinin düzgün idarə olunması funksiyasına kifayət qədər dövriyyə kapitalının saxlanması və bazar mövqelərinin bağlana bilməsi daxildir. Rəhbərlik, Müəssisənin likvidlik ehtiyatı üzrə davamlı proqnozlarına gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən nəzarət edir.

Müəssisənin maliyyə öhdəlikləri qeyri-törəmə maliyyə alətlərindən ibarətdir. Aşağıdakı cədvəldə Müəssisənin maliyyə öhdəlikləri hesabat tarixindən müqavilədə nəzərdə tutulan son ödəmə tarixinədək qalan dövr üzrə müvafiq ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilədə nəzərdə tutulan diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir.

31 dekabr 2025-ci il tarixinə maliyyə aktiv və öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| | Tələb edilənədək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | Cəmi |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Debitor borcları | - | - | - | - | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 756,740.00 | - | - | - | **756,740.00** |
| **Cəmi maliyyə aktivləri** | **756,740.00** | - | - | - | **756,740.00** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Kreditor borcları | - | ( 8,586.00) | - | - | **(8,586.00)** |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **( 8,586.00)** | **-** | **-** | **(8,586.00)** |
| **Xalis maliyyə mövqeyi** | **756,740.00** | **(8,586.00)** | **-** | **-** | **748,154.00** |

31 dekabr 2024-cü il tarixinə maliyyə aktiv və öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| | Tələb edilənədək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | Cəmi |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Debitor borcları | - | - | - | - | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,327,125.00 | - | - | - | **4,327,125.00** |
| **Cəmi maliyyə aktivləri** | **4,327,125.00** | - | - | - | **4,327,125.00** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Kreditor borcları | - | (8,234.00) | - | - | **(8,234.00)** |
| **Cəmi maliyyə öhdəlikləri** | - | **(8,234.00)** | - | - | **(8,234.00)** |
| **Xalis maliyyə mövqeyi** | **4,327,125.00** | **(8,234.00)** | - | - | **4,318,891.00** |

## 17. Ədalətli dəyər üzrə qiymətləndirmə

31 dekabr 2025-ci il ədalətli dəyər üzrə qiymətləndirmə təhlili aşağıda göstərilir:

| | 1-ci Səviyyə üzrə ədalətli dəyər | 2-ci Səviyyə üzrə ədalətli dəyər | 3-cü Səviyyə üzrə ədalətli dəyər | Balans dəyəri |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | |
| Debitor borcları | - | - | - | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 756,740.00 | - | - | 756,740.00 |
| **Cəmi maliyyə aktivləri** | **756,740.00** | - | - | **756,740.00** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Kreditor borcları | - | - | (8,586.00) | **(8,586.00)** |
| **Cəmi maliyyə öhdəlikləri** | - | - | **(8,586.00)** | **(8,586.00)** |

31 dekabr 2024-cü il ədalətli dəyər üzrə qiymətləndirmə təhlili aşağıda göstərilir:

| | 1-ci Səviyyə üzrə ədalətli dəyər | 2-ci Səviyyə üzrə ədalətli dəyər | 3-cü Səviyyə üzrə ədalətli dəyər | Balans dəyəri |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | |
| Debitor borcları | - | - | - | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,327,125.00 | - | - | **4,327,125.00** |
| **Cəmi maliyyə aktivləri** | **4,327,125.00** | - | - | **4,327,125.00** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Kreditor borcları | - | - | (8,234.00) | **(8,234.00)** |
| **Cəmi maliyyə öhdəlikləri** | - | - | **(8,234.00)** | **(8,234.00)** |

## 18. Hesabat dövründən sonra baş vermiş hadisələr

Hazırkı maliyyə hesabatlarının təsdiqləndiyi tarixə, hesabat tarixindən sonrakı dövr ərzində Xidmətin rəhbərlyi hər hansı bir riskin Xidmətin maliyyə hesabatlarına mənfi təsirini gözləmir.

| | |
|---|---|
| **Zaur Fətizadə** | **Arzu Nəftəliyeva** |
| **İdarə Heyətinin sədri** | **Maliyyə şöbəsinin rəisi** |